

## Aytəkin MEHMANQIZI

### Azərbaycan

Dünyada bir yer var, Azərbaycandır adı.
Ağızlardan getməz nemətlərinin dadı.
Hara getsəm belə sənsən Vətənim,
Səninlə döyünür bu təmiz qəlbim.
Sən odlar yurdusan, gözəl diyarsan,
Tanrıdan bizlərə bir yadigarsan!
Xəzər bəzəyindir, Qarabağ gözün,
Özünə çəkirsən dünyanın gözün.
Yad gözlər dikilib sənə əzəldən,
Qoy tanrım qorusun səni nəzərdən.
Dünyanın ən gözəl məkanısan sən,
Döyünən qəlbimsən sinəmdə Vətən!

### Allahdır dünyanı səhmana salan

*(Rəvayətə əsasən yazdığım şeirim)*

Düşünə bilərdi mi dörd fəsli insan?
Gör nələr xəlq etmiş bizi Yaradan,
Qışa qarı vermiş, Yaya günəşi,
Gözəldir möhtəşəm varlığın işi.
Özünü ağıllı saysada insan,
Allahdır dünyanı səhmana salan.

### Azərbaycan övladıyam

El qızı deyirlər adıma hərdən,
Allah ayırmasın məni elimdən.
Xalqım dərd görməsin heç zaman mənim,
Elimin dərdi də dərdimdir mənim.
Yazdığım şeirlər, gözəl misralar,
Xalqımın ruhunu qidalandırar,
Hər misramı mənim oxuyan zaman,
Mənimlə danışar xalqım həmin an.

### Yaşa istədiyintək

·Mələk olsan qanadını qırarlar,
Sınıq qəlblə səni yola salarlar.
Bildiyintək yaşa getsin dünyada,
Eyib arayan onsuz çoxdur həyatda.
Ağa "qara", qaraya "ağ" deyənlər,
Onsuz sənə "yaxşı" sözün deməzlər.
Odur ki, yaşa keçsin ömrün istədiyintək,
İnsan oğlu xoşbəxt yaşasın gərək.

### Uca tut başını

Uca tut başını vüqarlı dağ tək,
Özünü sındırma gülümsəyərək.
Dost, düşmən görəndə qoy fikrə getsin,
Nələr çəkdiyini kimsə bilməsin.
Halına yananlar az olacaqdır,
Düşənin dostuda olmayacaqdır.
Çalış düşməyəsən, büdrəməyəsən,
Hətta düşsən belə gülümsəyəsən.
Göstərmə heç kimə üzüldüyünü,
Söyləmə heç kimə ürək sözünü.
Biləcəkdir söyləməsəndə,
Köməklik edəcək istəməsəndə.
Arif ol dostunu düşməndən ayır,
Arif insan dostu barmaqla sayır.
Tək-tək dostu olar arif birinin,
Arif özü çəkir dərdin özgənin.

### Xudayar

*əziz şəhidimiz Xudayarın əbədi ruhuna ithaf*

Elin gözəl oğlu, Xudayar bala,
Canını Vətənə pay verən bala.
Sənintək oğullar canından keçdi,
Bizləri yaşatdı, özü isə getdi.

Sən ellər oğlusan, səsin hər yerdə,
Mahnın əzbər olub bu gün dillərdə.
Səni böyüdənin əllərindən mən,
Diz yerə qoyaraq bu gün öpürəm.

Nur üzlü çöhrən də qəlbimizdədir,
Xudayar ölməyib, o bizimlədir!
Səsin gəlir hərdən, sanki hər yerdən,
Deyirsən yaşasın, yaşasın Vətən!

### Vətən haqda bayatı

Qürbət eli dolan gəl,
Vətəninə qayıt gəl
Vətəndən əziz nə var?
Bir az gəzdin qayıt gəl.

Vətənim çox gözəldir,
Hə yeri çox gözəldir.
Havası, suyu təmiz,
Xəzəri çox gözəldir.

Vətənimin dağı var,
Aranı var, dağı var.
İnsana nə lazımsa,
Vətənimdə hamısı var.

### İtirilmiş güvən

Heç kimə güvənmə söylədi həyat
Baxdım ki, düz deyir, düz deyir heyhat!
Güvəniləcək yalnız bir varlıq vardır,
Onun adı isə uca Allahdır.
Güvən gözyaşı tək gözdən düşərsə,
Geriyə dönərmi birdə yenidən.
İnsanın gözündən biri düşürsə,
İnsan inanarmı ona təzədən.
Minarədən düşənin parçası tapılsada,
Gözdən düşən birinin parçası tapılmayır.
Gözdən düşən biri ilə salama yer olsada,
Könüldən inanmağa daha səbəb qalmayır.

### Qonşular

Dadlı bir xörəyi bişirən zaman,
Qonşunun payını göndərərdik biz.
Hanı o qonşular, hanı o günlər?
Dəyişib zəmanə, dəyişmişik biz.
Qonşu qoşusuna paxıllıq edir,
-"Niyə onda bu var, məndə yox?" deyir.
Dərdinə qalardı qonşu qonşunun,
Halını sorardı hər zaman onun.
İndi hər bir evin öz dərdi vardır,
Hər kəsi öz dərdi maraqlandırır.
Zəmanə ağırdır deyib insanlar,
Hər gün bir-birindən uzaqlaşırlar.
Qələmim hökm etdi nədənsə mənə,
Qonşu haqda deyim bu gün sizlərə.
Arzumdur Tanrıdan bütün qonşular,
Hər zaman mehriban, şən yaşasınlar.

### Sevgi əngəl bilməyər

Bir gün cavan bir oğlan, bir qıza aşıq olur,
Onun dərdindən gül tək rəngi saralıb solur,
Açıb ürəyini o, söyləyir qıza,
Bənzədərək onu aya-ulduza:
-Səni mən çoxdandır yaman sevirəm,
Bu eşqin yolunda candan keçərəm.
Bilmirəm nə edim sənə heç özüm,
Səni görən zaman qurtarır sözüm.
Gəl məni incitmə xahiş edirəm,
Bir kəlmə "hə" desən, çox sevinərəm.
Bu qız diqqət ilə baxır oğlana,
Elə həmin anda vurulur ona...
Sanki elə onu gözləmiş kimi,
Qəlbinə tez yatır doğmalar kimi.
Danışır oğlanla, zaman istəyir,
Oğlana ordaca belə söyləyir:
-Narahat olma gəl, vaxt ver sən mənə,
Məndə meyl verməram başqa birinə.
Düşünüm bir azda səbr etsən sən,
Məndən xeyir xəbər eşidəcəksən.
Beləcə bir müddət aradan keçir,
Oğlan evlənməyi təklif eyləyir:
-Gəl bir yerdə vuraq ömrü biz başa,
Həsədlə etsinlər bizə tamaşa.
Qız çox sevinir həmin xəbərdən,
Sevinib şad olur o an ürəkdən.
Bu qızın xain bir qonşusu vardı,
Etdiyi piliklər paxıllıqlardı.
Çəkirdi o qızın çox paxıllığın,
İstəmirdi onun heç yaxşılığın.
Özünün çox çirkin bir qızı vardır,
Canında bu qızın paxilliqlardı.
Qarşısın kəsərək qonşu oğlana,
Nahaq sözlər deyir qız haqda ona.
Məhəl verməyərək oğlan paxıla,
Evlənmək istəyir tezliklə qızla.
Eşidib bu paxıl qonşu xəbəri,
Dözməyir bu işə onun ürəyi.
Gəlib tapır yenə həmin oğlanı,
Kefinə doğrayır acı soğanı.
Söyləyir qız haqda nalayiq sözlər,
Oğlanda paxıldan daha nə gözlər?
Böhtanlar o atır bu yazığ qıza,
Tanrıdan qorxmayır, dönür quduza.
Zavallı oğlan da inanmır ona,
Nə qədər pis sözlər desə də ona.
Cavabın verərək qonşunun oğlan,
İnanmayır ona, qorxur Allahdan.
Bir gün ayılır ki, həmin o qonşu,
Artıq gecdir daha qonşuda toydu...
Beləcə paxılın gözlədikləri,
Sancılır qəlbinə xəncərlər kimi.
Şad və xoşbəxt olur həmin o cütlük,
Xoşbəxt yaşayırlar onlar ömürlük.

### İlanla insanın dostluğu

Bir gün gözəl bir insan,
Dostu ilə söhbət edir.
Söhbət əsasında o,
Dostuna belə deyir:
Əgər istəsə insan,
İlanla yola gedər.
Hörmət görsə insandan,
İlan da hörmət edər.
Söyləyir dostuna deyir ki, insan,
Sən yaxşılıq etsən, unutmaz ilan.
Nə var ki, ilanla dostluq etməyə?
İlanın dilini yaxşı bilməyə.
Onun da ürəyi vardır sizintək,
Təki ilan görsün səndən bir dəstək.
Dostu söyləyir ki, gözəl insana,
Düşünmə asandır dostluq ilanla.
Ehtiyat igidin yaraşığıdır,
İlan öz dilində zəbər daşıyır.
Çox da gəl güvənmə sən o ilana,
Çox da bel baglama gəl artıq ona.
İsrarla deyir ki, o gözəl insan,
Sabah ilanla mən yola çıxıram.
Yenə də özün bil, dostu söyləyir,
Gec deyil hələ də vaxta var deyir.
Sərin su götürür kuzədə insan,
Deyir birdən yolda susuyar ilan.
Səhəri istidə çıxırlar yola,
Çıxır yola insan, çıxır ilanla.
Çox isti olduğundan,
Yolda susuyur ilan.
Sanki ürəyi yanır,
Onun bu susuzluqdan.
Yuxu tutur insanı yolda yumur gözünü,
Açıb söyləyə bilmir ilana öz sözünü.
Məqam keçir ilanın bu anda tez əlinə,
Sahib çıxa bilməyir öz zəhərli dilinə.
Sancır gözəl insanı suyu verən əlindən,
Əl götürə bilməyir öz köhnə adətindən.
Söz versədə insana dost olacam ömürlük,
Dostluq edə bilməyir insanla bircə günlük...